**Xidmət rəisi: Yaşıl iqtisadiyyatın stimullaşdırılmasında vergi siyasətinin rolu böyükdür**

Yaşıl iqtisadiyyatın stimullaşdırılmasında vergi siyasətinin rolu böyükdür.

AZƏRTAC xəbər verir ki, bu sözləri Dövlət Vergi Xidmətinin (DVX) rəisi Orxan Nəzərli Karbon Qiymətqoyma üzrə Beynəlxalq Forumda çıxışı zamanı deyib.

Onun sözlərinə görə, bərpaolunan enerji mənbələrinə sərmayə qoyuluşunun, istehsal sektorunda və ixrac olunan məhsullarda "karbon izi"nin azaldılmasına yönələn siyasətin vergi alətləri vasitəsilə dəstəklənməsi milli vergi sisteminin diqqət mərkəzindədir.

"Ətraf mühitin qorunması üçün bir çox tədbirlər həyata keçirilir və vergi alətləri də bu tədbirlərə fəal dəstək verir. Biz hesab edirik ki, ölkədə dayanıqlı iqtisadi inkişafın və iqlim əsaslı yaşıl iqtisadiyyata keçidin təmin edilməsi yalnız vergiqoyma siyasəti və yaxud bizneslərin üzərinə əlavə vergiqoyma ilə deyil, həm də bərpaolunan enerji mənbələrindən istifadə və yaxud "yaşıl texnologiyalar"dan istifadənin vergilərlə təşviqi hesabına mümkündür. Ölkəmizdə aşağı emissiyalı məhsul və sənayeləri təşviq edən qanunvericilik aktları qəbul edilib. Elektrik və hibrid avtomobillərə, elektrik mühərriki ilə işləyən avtomobillər üçün enerji doldurucularına, habelə əhali qrupuna daxil olan aktiv istehlakçılar tərəfindən bərpaolunan enerji mənbələri hesabına istehsal olunan elektrik enerjisinin müəyyən hədd daxilində elektrik təchizatı şəbəkəsinə ötürülməsindən əldə edilən gəlirlərə münasibətdə tətbiq olunan təşviqləri nümunə göstərmək olar. Yaşıl enerjinin istehsalını həyata keçirənlər üçün iqtisadi stimulların verilməsi gündəmimizin prioritetidir", - deyə DVX rəisi əlavə edib.

**AZƏRTAC**
**2024, 25 sentyabr**